# Uğurlu yol axtarışında

**Elxan Məcnunov 1971-ci ildə Quba rayonunun axarlı-baxarlı Zizik kəndində anadan olub. 1986-cı ildə kənd orta məktəbinin VIII sinfini bitirdikdən sonra təhsilini Bakı Ticarət Texnikumunun "Yeməklərin hazırlanması" fakültəsində davam etdirmiş, 1990-cı ildə həmin texnikumu fəqrlənmə diplomu ilə bitirmişdir. 1990-1992-ci illərdə Estoniyanın Tallin şəhərində əsgəri borcunu yerinə yetirmişdir. Ailəlidir. İki övladı var.**

**Poeziya həvəskarı olan Elxan bədii yaradıcılığa çoxdan başlasa da ilk şeirləri ilə 2021-ci ildə dövri mətbuata gəlmişdir.**

**Onun 25 oktyabr 2021-ci il tarixli "Şəfəq" qəzetində dərc olunmuş "Şəhid anası" və "Şəhid olmuşam" adlı şeirlərini və mənə verdiyi 30-a yaxın poetik nümunələrini oxuduqdan sonra bu qənaətə gəldim ki, o, şeir-sənət dünyasının çətinliklərini, ağrı-acısını başa düşür, bilir.**

**Amma bu çətinliklərdən qorxub-çəkinmir. Bu da sözün əsl mənasında, onun yaxşı bir şair olacağına ümid verir.**

**Biz Elxan Məcnunova gələcək yaradıcılığında uğurlar diləməklə üç şeirini dəyərli oxucularımıza təqdim edirik.**

**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi,**
**"Gülüstan" elmi-ədəbi məclisinin sədri.**

## *Yurd sevdalı ürəkdir*

*Minib özgə atına,*
*Öz atın kimi çapma.*
*Daşdan çıxan çörəyi,*
*Fağır əlindən qapma.*

*Topağa bağlı övlad,*
*Zəhmətin məhvəridir.*
*Əməllə yaşayır ad,*
*Düzlük haqq hünəridir.*

*Tanrıdan sevilməyən,*
*Bəndə nəyə gərəkdir?*
*Haqsıza əyilməyən,*
*Yurd sevdalı ürəkdir.*

*Vətənin şah əsəri,*
*Dağ cüssəli yurddaşdır.*
*Türk soyunun bəhəri,*
*Zəfər çalan qardaşdır.*

## *Şəhid övladı*

*Atasız böyümək çətin də olsa,*
*Ər atan ölməyib, Şəhid övladı!*
*Dost-düşmən önündə dik tut başını,*
*Ər atan ölməyib, Şəhid övladı!*

*Mərd atan yanında olmasa belə,*
*Ata tək qayğına qalmasa belə.*



*Atanla öyünür, elin, fəxr elə,*
*Ər atan ölməyib, Şəhid övladı!*

*Ruhunun önündə hamı baş əyir,*
*Şəninə dəyərli alqış söyləyir.*
*Varlığı həsrətin qəddini əyir,*
*Ər atan ölməyib, Şəhid övladı!*

*Əbədi yaşayır qəlblərdə adı,*
*Gəncliyə örnəkdir şəhid həyatı.*
*Yazıldı tarixə, adı, soyadı,*
*Ər atan ölməyib, Şəhid övladı!*

## *Payız lövhəsi*

*Yenə külək əsir, göy guruldayır,*
*Yağmurlu buludlar dəyir baş-başa.*
*Bu gecə təbiət könül oxşayır,*
*Torpaq əl açdıqca yağan yağışa.*

*Dəyişir donunu sanki təbiət,*
*Payızın xoş ətri ürəyi açır.*
*Torpağa qidadır, yağışlı qismət,*
*Ağaclar göylərə əllərin açır.*

*Ətrafa yayılır yağışın səsi,*
*Selləmə yağışda yuyunur yarpaq.*
*Yarpağı sovuran sərt külək əsir,*
*Yağmurlu havada dincəlir torpaq.*